# Şuşa fatehi



**Azərbaycan Silahlı Qüvvələri Xüsusi Təyinatlı Döyüşçülərinin komandanı, general-leytenant, Qarabağ Müharibəsi Qəhrəmanı Hikmət Mirzəyevi xalqımız və türkdilli xalqlar Şuşa fatehi adlandırırlar. General Azərbaycanın qədim mədəniyyət paytaxtı, Qafqazın incisi sayılan Şuşanın, Qarabağın digər rayonlarının azad olunmasında xüsusi sərkərdəlik bacarığı və döyüş rəşadəti nümayiş etdirib və adı əbədili Azərbaycan tarixinə düşüb. Bu Zəfər günü ilə bağlı ona həsr elədiyim şeirimi çoxminli oxucuların ixtiyarına verirəm.**

Ürəyin dözmədi yurd darda qala,
Torpağın düşmənə bir tapdaq ola.
Şuşa dağlarında dönüb qartala,
Düşmənin gözünü oydun, general.

Neçə yol xəzan tək solub Qarabağ,
Bulud tək boşalıb, dolub Qarabağ.
Əsirlikdən xilas olub Qarabağ,
Xilaskar tək öndə oldun, general.

Xocalının qurumayır göz yaşı,
Qayalardır ölənlərin başdaşı.
Qalanların qan ağlayır yaddaşı,
Sönməyibdi qisas odun, general.

Cənab Baş Komandan səni dinlədi,
Qələbə raportun Şuşadan gəldi.
Üçrəngli Bayrağın burda yüksəldi,
Zəfərinlə qürur duydun, general.

Qürur duydun azad Qarabağınla,
Düşmən ürəyinə vuran dağınla.
Ucaldın ucalan o Bayrağınla,
Qəhrəmanlıq izi qoydun, general.

Şuşa dağlarından duman çəkilib,
Ürəklərdə şübhə, duman çəkilib.
İşğal dövrü bitib, zaman çəkilib,
Gülür elin, gülür yurdun, general.



**Əlizadə ƏSƏDOV**

Azad Azərbaycan.- 2022- ci il.- 12 noyabr.- S. 5.